# Ömrünü gənclərin vətənpərvərlik tərbiyəsinə həsr edən müəllim



## Yanar şama bənzəyən müəllim ömrü

Adətən müəllim ömrünü yanar şama bənzədirlər. Ömürlərini şam kimi əridərək ətrafındakıları nura qərq edənlərdir müəllimlərimiz. Hər birimizin həyatında əsaslı rol oynamış müəllimlərimiz var. Məhz onların sayəsində bir şəxsiyyət kimi formalaşır və həyatda düzgün yol seçirik.

1981-ci ildən Bakı şəhəri 129 nömrəli tam orta məktəbdə gənclərin çağırışaqədərki hazırlığı rəhbəri işləyən əməkdar müəllim İsfəndiyar Əliyev də 65 illik ömrünün 35 ilini gənclərin vətənpərvərlik tərbiyəsinə həsr edərək neçə-neçə yetirməsinin qəlbində özünə rəğbət, sevgi qazanmış, ömrünü millətin balalarının təlim-tərbiyəsi yolunda şam kimi əridən pedaqoqlarımızdandır.

Maraqlı həmsöhbət olan İsfəndiyar müəllimlə görüşümüz onun doğum günü ərəfəsində oldu. Söhbət əsnasında qəhrəmanımız ötən illərə qayıtdı. Həyatı, pedaqoji fəaliyyəti ilə yaxından tanış olduq.

## Əsgəri xidməti zamanı hərbi sahəni seçməyi qərara alıb...

İsfəndiyar Əliyev doğulduğu Lənkəran rayonunun Vilvan kəndi, orada təhsil illərini və müəyyən bir müddət qalıb işləməyini həyatının ən gözəl çağları kimi qeyd edir, indi də xoş hisslərlə yada salır... Orta məktəb illərində Böyük Vətən müharibəsi barədə oxuduğu kitabların, müharibə iştirakçılarının, həmin mövzuda yaşlıların söhbətlərini dinləməsini, kinofilmlərə baxmasını və ən nəhayət, Almaniya Demokratik Respublikasına hərbi xidmətə göndərilməsini, burada gördüklərini, hərb sahəsində əldə etdiyi müəyyən biliklərin gələcək həyat yolunun müəyyənləşdirilməsində əhəmiyyətli rol oynadığını söyləyir. Artıq o zaman hərbi sahəni seçməyi özü üçün qətiləşdirir. Tale elə gətirir ki, vətənə gənc zabit kimi qayıtdıqdan sonra Xarici Dillər İnstitutunun ingilis dili fakültəsinə qəbul olunur. 1981-ci ildən ali təhsilli müəllim kimi Bakı şəhəri 129 nömrəli tam orta məktəbdə pedaqoji fəaliyyətə başlayır. 35 ildir ki, təcrübəli pedaqoq şagirdlərinin orduya hazırlanmasında öz bilik və bacarığını əsirgəmir.

## Gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi məktəbdən başlayır

Gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinin məktəbdən başlandığını söyləyən İsfəndiyar müəllim bunları qeyd edir: "Torpaqlarımızın 20 faizinin işğal altında olduğu bir vaxtda təhsil müəssisələrimiz yüksək bilik və bacarığa malik şagirdlər yetişdirməklə bərabər, yeniyetmələrin hərbi-vətənpərvərlik tərbiyəsinə də diqqət yetirməlidir. Təsadüfi deyildir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2015-ci il sentyabrın 15-də - "Bilik günü"ndə Bakıdakı 148 nömrəli tam orta məktəbin açılış mərasimindəki nitqində ümumi təhsilin inkişaf istiqamətləri, xüsusilə uşaq və gənclərin vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi ilə bağlı olduqca dəyərli fikirlər söyləyib. Bir müəllim kimi düşünürəm ki, gənclərdə vətəndaşlıq hisslərinin, hərbi-vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi, onların Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizəyə hazırlıq ruhunda tərbiyə edilməsi sahəsində daha ardıcıl və davamlı işlərin aparılması ilə bağlı xüsusilə məktəbin və biz təhsil işçilərinin üzərinə mühüm vəzifələr düşür. Bu gün ölkəmizin qarşılaşdığı təcavüzü, torpaqlarımızın 20 faizinin işğalı, 1 milyon əhalimizin qaçqın və məcburi köçkün həyatı yaşadığını nəzərə alaraq hərbi-vətənpərvərlik tərbiyəsi gücləndirilməlidir".

İsfəndiyar müəllim dərs dediyi şagirdlərinin daxili aləminin zənginləşdirilməsi, yeniyetmələrdə Vətənə, torpağa bağlılıq, azərbaycançılıq ideyalarının formalaşdırılması, qəhrəmanlıq, mübarizlik ruhunda tərbiyə olunması, ordu quruculuğunda onların fəal iştirakının yüksək səviyyədə təmin edilməsi üçün daim üzərində çalışır, keçdiyi fənnin müasir tələblərə uyğun tədrisinə nail olur. O, dərslərində Azərbaycan Silahlı Qüvvələri haqqında ümumi məlumatların, zəruri hərbi nizamnamə qaydalarının mənimsənilməsinə, onların ordu həyatı ilə tanışlıqlarına nail olmaqla bərabər, Vətənin gələcək əsgərlərinin hərbi xidmətə fiziki və psixoloji cəhətdən hazır olmaları istiqamətində də geniş işlər aparır.

## Nümunəvi baza-kabineti

Çalışdığı təhsil ocağında yaratdığı gənclərin çağırışaqədərki hazırlığı kabineti müasir tələblərə cavab verməklə yanaşı, öz gözoxşayan tərtibatına, həmçinin maddi-texniki bazasının zənginliyinə görə diqqəti cəlb edir. Kabinet fənnin tədrisi ilə bağlı zəruri olan bütün əyani və tədris vəsaitlərinin, avadanlıqların yüksək səviyyədə olması və şagirdlərin bunlardan səmərəli istifadə edə bilmələri üçün yaradılmış geniş imkanları ilə fərqlənir. Sevindirici haldır ki, onun yaratdığı kabinet 2005-ci ildən Nizami və Nərimanov rayonları üzrə baza kabineti seçilmişdir, həmçinin respublikamızda ən nümunəvi baza-kabinetlərdən biri sayılır. Burada mütəmadi olaraq tədris vəsaitləri yeniləşdirilir və təkmilləşdirilir, müxtəlif ədəbiyyatlarla zənginləşdirilir. Fənnin tədrisində Heydər Əliyev Fondunun dəstəyi ilə çap edilən plakat və dərsliklərdən geniş istifadə olunur. Rayonun digər məktəblərinin gənclərin çağırışaqədərki hazırlığı rəhbərlərinin seminar-məşğələləri məhz burada keçirilir.

Elə gənclərin çağırışaqədərki hazırlığı rəhbərinin yetirmələrinin ölkəmizdə keçirilən "Şahin", "Cəsurlar " kimi hərbi idman yarışlarında əldə etdikləri nailiyyətlər onların məhz bu kabinetdə öyrəndikləri hərbi biliklərin və qazandıqları təcrübənin sayəsindədir desək, bizcə yanılmarıq.

## Vətəni qorumağa hazır olan yetirmələri...

İsfəndiyar müəllim fəaliyyətində bir yerdə dayanmağı və ya öyrətdiyi biliklərlə kifayətlənməyi sevməyən pedaqoqlardandır. Hər zaman axtarışda, öyrənmək və öyrəndiklərini şagirdlərinə çatdırmaqdır, onun iş prinsipi. Yaxından tanıyanlar onu tədris prosesinə yeniliklər gətirən novatorçu müəllim adlandırırlar. Təhsil ocağında gənclərin çağırışaqərki hazırlığı fənnini tədris etməklə fəaliyyətini məhdudlaşdırmayan İsfəndiyar müəllim bildirir ki, artıq neçə illərdir Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Nizami Rayon İdarəsinin və rayon icra hakimiyyətinin birgə razılığı əsasında hər ilin payız aylarında şagirdlər hərbi hissələrə aparılır. Şagirdlər əsgər və zabitlərlə görüşür, onlardan hərb sənətinin incəliklərinə dair ətraflı və dəqiq məlumat alırlar, hərbi xidmət qaydaları, zirehli texnika ilə elə yerindəcə tanış olurlar ki, bu da silah növlərinin daim yeniləşdiyi bir dövrdə belə praktiki dərslərin aparılması baxımından olduqca əhəmiyyətlidir.

Artıq neçə illərdir ki, İsfəndiyar müəllim yetişməkdə olan gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmasında hərbi bilik və bacarığını əsirgəmir, üzərinə düşən vəzifəni layiqincə yerinə yetirir. O, həmçinin yeniyetmələrin Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Nizami Rayon İdarəsində çağırış məntəqəsinə təhkim edilməsində, onların sənədlərinin vaxtlı-vaxtında toplanıb təhvil verilməsində və hərbi həkim komissiyasından keçirilməsində yaxından iştirak edir, respublikanın hərbi məktəblərində təhsil almaq istəyənlərin seçilməsində fəallıq göstərir. Onun vaxtilə dərs dediyi gənclər Azərbaycan Respublikasının Silahlı Qüvvələrində, digər güc nazirliklərinin qoşun hissələrində hərbi bilik və bacarıqlarını nümayiş etdirərək doğma Vətənimizə layiq nümunəvi xidmət göstəririlər. Onlardan bir çoxu şərəfli zabit peşəsini seçiblər, bir çoxları isə orden və medallarla təltif olunublar.

## "Əməkdar müəllim - müəllim əməyinə dövlət səviyyəsində verilən ən yüksək mükafatdır"

İllər bir-birini əvəzlədikcə təhsil sahəsində qazandığı nailiyyətlər İsfəndiyar müəllimi daha da həvəsləndirib. Uğurlarına uğur qatan pedaqoqun səmərəli fəaliyyəti diqqətdən kənarda qalmayıb, əməyi hər zaman qiymətləndirilib.

Şagirdlərinə hərbi bilikləri yüksək səviyyədə öyrətməsi, dərslərində əyani vəsaitlərdən istifadə etməsi, praktik məşğələləri ardıcıl aparmasının nəticəsdir ki, İ.Əliyev bu günə qədər məzunlarının əsgəri xidməti keçdikləri hissələrdən çoxlu sayda təşəkkür məktubları almışdır. Aldığı diplom, təşəkkür məktubları, fəxri fərmanlarda isə ehtiyatda olan zabit İsfəndiyar Əliyevin gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması işində bilik və bacarığını əsirgəmədiyi göstərilir, gənclərin çağırışaqədərki hazırlıq rəhbəri kimi çalışdığı 129 nömrəli tam orta məktəbdəki uzunillik səmərəli fəaliyyəti yüksək qiymətləndirilir. Təcrübəli pedaqoq Təhsil Naziliyinin "Azərbaycan Respublikası qabaqcıl təhsil işçisi" döş nişanı ilə təltif edilmiş, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin Fəxri fərmanına layiq görülmüşdür.

İsfəndiyar müəllim uzun illər fəaliyyət göstərdiyi məktəbindən də həvəslə danışır. Təhsil ocağındakı əlverişli təlim mühitindən, direktor Esmira Quliyevanın yüksək idarəçilik və təşkilatçılıq bacarığından, müəllimlərlə səmimi münasibətindən razılıq hissi ilə söz açır. Məktəblərinin Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2014-2015-ci tədris ilində keçirilmiş "Ən yaxşı ümumtəhsil müəssisəsi" müsabiqəsinin qalibi olmasını isə bir daha Azərbaycan təhsilinə, məktəbinə dövlət səviyyəsində verilən yüksək dəyərin bariz nümunəsi olduğunu söyləyir.

2014-cü il isə İsfəndiyar müəllimin həyatında ən yaddaqalan illərdən biri olub. Belə ki, o, ölkə başçısı İlham Əliyevin sərəncamı ilə "Əməkdar müəllim" fəxri adına layiq görülüb. Təcrübəli pedaqoq: "Əməkdar müəllim - müəllim əməyinə dövlət səviyyəsində verilən ən yüksək mükafatdır. Həyatımda çox mükafatlarım olub. Bir təhsil işçisi kimi mənim üçün ən ali mükafat dövlət başçısı cənab İlham Əliyev tərəfindən verilən fəxri addır. Mən bu adın aliliyini, müqəddəsliyini öz pedaqoji fəaliyyətimlə qoruyacaq və mənə göstərilən etimadı bundan sonra da doğrultmağa çalışacağam,"-deyir.

İsfəndiyar Əliyevin fevralın 15-də 65 yaşı tamam olur. 65 illik ömrünün 35 ilini sevdiyi peşəsinə həsr etmiş, gözəl ailə başçısı olan təcrübəli pedaqoqa çansağlığı, nailiyyətlərinin davamlı olmasını arzulayırıq!

**Samirə KƏRİMOVA,**
*"Azərbaycan müəllimi",*
s.kerimova@ muallim.edu.az